# Lənkəranın mədəniyyət mərkəzi

Lənkəran Şəhər Mədəniyyət Mərkəzi 33 ildir əhalinin asudə vaxtının səmərəli təşkili işinə xidmət edir. 1992-ci ildən respublikanın əməkdar artisti, Lənkəran Dövlət Musiqili Teatrının direktoru olmuş mərhum sənətkar Qəni Vəliyevin adını daşıyan Mədəniyyət Mərkəzi özünün 75 klub müəssisəsi ilə bu işin öhdəsindən bacarıqla gəlir.









Onu da qeyd edək ki, ötən dövr ərzində mərkəzin yerləşdiyi bina əsaslı təmir olunmamış, inventar-avadanlıqlar tamam sıradan çıxmışdı. 2014-cü ilin aprelində isə Lənkəran ŞİH başçısının təşəbbüsü ilə rayonun daxili imkanları hesabına bina yeni layihə əsasında əsaslı təmir edildi. Binanın interyer və eksteryeri yeniləndi, qarşı həyətdə fontanlı bağ yaradıldı, yerə mərmər üzlüklər döşəndi. Mədəniyyət Mərkəzinin həyəti 1 hektar ərazini əhatə edir. Bağda 20 minə yaxın mövsümi gül və ağac əkilmiş, yaşıl çəmən yaradılmış və lazımi yerlərə asfalt döşənmişdir. Mərkəzin inzibati binasında 70 nəfərlik kiçik mühazirə, 525 yerlik tamaşa, etnoqrafiya və rəqs zalları, VİP otaq, müşavirə salonu, elektron kitabxana, vestibül, foye, 8 inzibati otaq, 5 qrim otağı, metodika kabineti, 5 dərnək otağı, paltarsaxlama salonu, qızdırıcı sistem var.

Hazırda burada 17 dərnək və kurs, maraq klubu, bədii özfəaliyyət kollektivi, "Çöllə-mə" rəqs qrupu, kompüter mərkəzləri yeniyetmə və gənclərin asudə vaxtının daha səmərəli təşkil olunmasına xidmət edir. Mədəniyyət Mərkəzinin ətrafında birləşmiş klub müəssisəsinə metodiki kömək göstərilir. Klub filialları da nəzərə alınarsa, Mədəniyyət Mərkəzində 235 dərnək və kurs fəaliyyət göstərir. Ay ərzində klub filialları 210-dan çox mədəni-kütləvi tədbir keçirir. Üstəlik, hər ay bir sıra ümumşəhər tədbirləri də hazırlanır. Bu sırada ənənəvi "Lənkəran payızı" folklor festivalını, "Dəmirağacı" sənətkarlıq sərgisini və "Lənkəran - doğma diyar" adlı elmi-praktik konfransı qeyd edə bilərik. Yay mövsümündə isə silsilə konsertlər verilir. Təkcə ötən il "Yurdum, yuvam, məskənimsən, Azərbaycanım!" devizi altında 11 kənddə konsert verilmişdir. Bu yay da həmin deviz altında tematik konsertlər verilir.

***S.CAVADOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***